# AZƏRBAYCAN

## ÖLKƏ İCMALI

Oğlan uşaqlarına verilən üstünlüyün qarşısının alınması və qızların dəyərinin təşviq edilməsi üzrə Qlobal Proqram: Cənubi Qafqaz və bir sıra Asiya ölkələrində doğulan uşaqlar arasında cins nisbətinin tənzimlənməsi

Bakı 2018



# AZƏRBAYCAN
## ÖLKƏ İCMALI

Oğlan uşaqlarına verilən üstünlüyün qarşısının alınması və qızların dəyərinin təşviq edilməsi üzrə Qlobal Proqram: Cənubi Qafqaz və bir sıra Asiya ölkələrində doğulan uşaqlar arasında cins nisbətinin tənzimlənməsi

**Bakı 2018**

# İXTİSARLARIN SİYAHISI

| | |
|---|---|
| **Aİ** | Avropa İttifaqı |
| **AQUPDK** | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi |
| **ASAN** | Azərbaycan Respublikasının Prezidenti Yanında Vətəndaşlara Xidmət və Sosial Innovasiyalar üzrə Dövlət Agentliyi |
| **AŞPA** | Avropa Şurasının Parlament Assambleyası |
| **BMTİP** | BMT-nin İnkişaf Proqramı |
| **CEDAW** | "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiya |
| **DSK** | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi |
| **DSS** | Demoqrafiya və Sağlamlıq Sorğusu |
| **İİH** | İnsan İnkişafı Hesabatı |
| **IMAGES** | Kişilərin Gender Bərabərliyinə Münasibətinə dair Tədqiqat |
| **QHT** | Qeyri-hökumət təşkilatı |
| **UDİ** | Universal Dövri İcmal |
| **UNFPA** | BMT-nin Əhali Fondu |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **ÜNƏ** | Ümumi Nəsilvermə Əmsalı |

# MÜNDƏRİCAT

Qısa xülasə....4
Ümumi məlumat....5
Tədqiqat metodologiyası və məhdudiyyətlər....7

**BÖLMƏ 1. OĞLAN UŞAQLARINA VERİLƏN ÜSTÜNLÜK VƏ GENDER ƏSASLI CİNS SEÇİMİ**....9
1.1 Giriş....9
1.2 Azərbaycanda doğulan uşaqlar arasında cins nisbətinin pozulması....9
1.3 Doğulan uşağın cinsinə görə seçiminin səbəbləri....10
1.4 Nəsilvermənin azalması və oğlan uşaqlarına üstünlüyün verilməsində müşahidə olunan fərqlər....12
1.5 Regional fərqlər....13

**BÖLMƏ 2. QANUNUN ALİLİYİ VƏ İNSAN HÜQUQLARI**....15
2.1 Beynəlxalq konvensiyalar və sazişlər....15
2.2 Milli qanunvericilik....15
2.3 Milli çərçivə....16

**NƏTİCƏLƏR: ÇƏTİNLİKLƏR, İMKANLAR VƏ TÖVSİYƏLƏR**....19

# QISA XÜLASƏ

## OĞLAN UŞAQLARINA VERİLƏN ÜSTÜNLÜK VƏ QIZ UŞAQLARINA DAHA AZ DƏYƏRİN VERİLMƏSİ KİMİ ZƏRƏRLİ TƏCRÜBƏLƏRİN ARADAN QALDIRILMASI

1990-cı illərin əvvəllərinə qədər Azərbaycanda doğulan uşaqların cins nisbəti hər 100 qız uşağına 102-106 oğlan uşağı olmaqla əsas etibarilə bioloji normaya uyğun idi. Lakin sonradan bu nisbət 1990-cı ildə hər 100 qız uşağına 107 oğlan, 2003-cü ildə isə hər 100 qız uşağına 118 oğlana qədər artmışdır. 2015-2017-ci illərdə isə bu göstərici bir qədər azalaraq 114-ə enmişdir.

Gender və gender bərabərliyi ilə bağlı ənənəvi inanclar hələ də geniş yayılıb və Azərbaycanlı kişi və qadınların zehnində dərin kök salıb. Dəlillərə əsaslanan məlumatlardan görünür ki, dərin kök salmış bu gender stereotipləri və yanlış təsəvvürlər, habelə oğlan uşaqlarına yüksək dəyər aşılayan ənənəvi təcrübələr Azərbaycanda gender əsaslı cins seçimi fenomeninə əhəmiyyətli töhfə verir. Oğlan uşaqlarına üstünlüyün verilməsi Azərbaycanda mövcud olan patriarxal ailə strukturu və təcrübələrin səciyyəvi komponentidir. Dəlillərə əsaslanan məlumatlar bu fenomenin doğulan uşaqlar arasında cins nisbətinin pozulmasına gətirib çıxardığını göstərir.

Ölkədə dərin kök salmış oğlan uşaqlarına üstünlüyün verilməsi ənənəsi cəmiyyətdən qaynaqlanan müxtəlif amillərlə bağlıdır. Bu amillər hələ də oğlanların qızlarla müqayisədə sosial və iqtisadi cəhətdən daha dəyərli hesab edilməsinə səbəb olur. Belə ki, vərəsəlik və torpaq hüquqları əsasən kişi xətti ilə ötürülür, kişilərin işçi qüvvəsində payının daha çox olması onların ailə gəlirinə daha çox qatqı təmin etməsinə imkan verir və yaşlı valideynlər səmərəli sosial təminat planlarının olmadığı hallarda oğullarının dəstəyinə güvənməli olur. Azərbaycan mədəniyyətində qadınlara adətən "köçəri quş" kimi baxılır: onlar ailə qurarkən öz bioloji ailələrini tərk edərək başqa bir ailəyə köçür və özlərinin sosial-iqtisadi statusu ilə əlaqədar olaraq, ehtiyac olduqda valideynlərinə dəstək göstərmək imkanlarına malik olmurlar. Üstəlik, cəmiyyətin yazılmamış qanunları yalnız oğlan uşaqlarının ailə soyadını davam etdirməsini, habelə müəyyən dini və mədəni mərasimləri həyata keçirməsini diktə edir.

Bu günə qədər gender əsaslı cins seçiminin və oğlan uşağına verilən üstünlüyün aradan qaldırılması məqsədilə həyata keçirilən müdaxilələrin böyük əksəriyyəti nəticə etibarilə qadınların arzu edilməyən və planlaşdırılmayan hamiləlik zamanı abortu seçmək kimi əsas insan hüquqlarını təhlükə altında qoya biləcək hüquqi və normativ təşəbbüslərə yönəlmişdir. Ölkədə bu riskin qarşısını almaq üçün gender bərabərliyinin təmin olunmasına, qadınların və qız uşaqlarının statusunun yüksəldilməsinə yönələn strategiyalar hazırlanmalı və bu strategiyalar qız uşaqları ilə bağlı məsələləri kifayət qədər əhatə etməlidir.

Oğlan uşaqlarına verilən üstünlüyün və gender əsaslı cins seçiminin qarşısının alınması və aradan qaldırılması istiqamətində ardıcıl yanaşma tətbiq edilməli və bu yanaşma bir-biri ilə qarşılıqlı əlaqəli olan bir sıra müdaxilələri, o cümlədən normativ çərçivələrin təkmilləşdirilməsi, bilik bazasının və məlumatların artırılması, əhalinin və qərarverici şəxslərin bu məsələyə həssaslığının artırılması və tərəfdaş dövlət qurumlarının (məs., Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Gənclər və İdman Nazirliyi), habelə dini təsisatlar da daxil olmaqla, vətəndaş cəmiyyəti təşkilatlarının, KİV-in və Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN) fəal iştirakı ilə çoxsahəli yanaşmaların gücləndirilməsini özündə ehtiva etməlidir.

Hökumət 2011-ci ildən etibarən BMT-nin Əhali Fondunun dəstəyilə oğlan uşaqlarına verilən üstünlük və gender əsaslı cins seçimi probleminin aradan qaldırılması istiqamətində bir sıra müdaxilələr etmişdir. Görülmüş əsas tədbirlərə müvafiq normativ bazanın hazırlanması və məlumatlı qərarvermə məqsədilə dəlillərə əsaslanan məlumatların təmin edilməsi, maarifləndirmə işləri və sözügedən fenomenin qarşısının alınması və aradan qaldırılmasına yönələn normativ çərçivənin hazırlanması üçün təşviqat fəaliyyətləri daxildir.

# ÜMUMİ MƏLUMAT

## AZƏRBAYCAN BARƏDƏ ÜMUMİ MƏLUMAT

Azərbaycan Respublikasının ərazisi 86.6 min kvadrat kilometrdir.[1] Azərbaycan beş ölkə ilə həmsərhəddir: şimalda Rusiya, şimal-qərbdə Gürcüstan, qərbdə Ermənistan, cənubda İran və Türkiyə. Azərbaycan Xəzər dənizi vasitəsilə dörd ölkə ilə su sərhəddinə malikdir: Rusiya, Qazaxıstan, Türkmənistan və İran. Ölkənin paytaxtı və ən böyük şəhəri olan Bakı Xəzər dənizinin sahilində yerləşir.

Azərbaycan dünyəvi ölkədir və konstitusiyası vətəndaşların din azadlığına təminat verir. Ölkədə ən geniş yayılmış din İslam dinidir. Bununla yanaşı, ölkənin tarixi inkişaf xüsusiyyətləri, coğrafi mövqeyi və əhalinin milli tərkibi müxtəlif din və inancların yayılması üçün əlverişli zəmin yaratmışdır.

**Dil:** Ölkənin əsas və rəsmi dili Azərbaycan dilidir.

## Demoqrafik məlumatlar

**Etnik tərkib:** Azərbaycanda 80-dən çox etnik qrup mövcuddur. Əhalinin böyük əksəriyyətini (91.6%) sayı 8 173 000 (2009-cu il siyahıyaalması) nəfər olan azərbaycanlılar[2] təşkil edir. 100 min nəfəri keçən ən böyük etnik azlıqlar ləzgilər (2 faiz), ruslar (1.3 faiz), ermənilər (1.3 faiz) və talışlardır (1.3 faiz).

**İqtisadi dəyişənlər:** Dünya Bankının məlumatlarına əsasən, Azərbaycanın iqtisadiyyatı qeyri-neft sektorunda istehsalın 5.4 faiz azalması nəticəsində 2016-cı ildə 3.8 faiz azalmışdır. 2016-cı ildə neft sektoruna düşən ÜDM-də artım olmamışdır. Hökumət özəl sektorun inkişafına dəstək məqsədilə struktur islahatlarını, o cümlədən gömrük prosedurlarının və lisenziyalaşdırma tələblərinin sadələşdirilməsini sürətləndirib.

| Göstərici | Təqdim olunan rəqəm | Təqdim olunan rəqəm |
|---|---|---|
| **Əhalinin ümumi sayı (milyon nəfərlə)** | 9,810 | DSK, 2017* |
| **Şəhər əhalisi (milyon nəfərlə)** | 5,199 (53%) | DSK, 2017* |
| **Kəndlərdə yaşayan əhali (milyon nəfərlə)** | 4,611 (47%) | DSK, 2017* |
| **Kişilər (milyon nəfərlə)** | 4,891 (49.9%) | DSK, 2017* |
| **Qadınlar (milyon nəfərlə)** | 4,918 (50.1%) | DSK, 2017* |
| **15-49 yaşlı qadın əhali (milyon nəfərlə)** | 2,681.8 (27.3%) | DSK, 2017* |
| **Ümumi Nəsilvermə Əmsalı** | hər qadına 2.0 uşaq | DSK, 2017* |
| **Əhalinin artımı (illik, %)** | 1.2 | Dünya Bankı, 2016 |
| **Müasir kontraseptiv üsullardan istifadə səviyyəsi** | 13.9 | DSS, 2011 |
| **Ümumi abort əmsalı (hər qadına)** | 2 | DSS, 2011 |
| **Körpə ölümü əmsalı (hər 1000 nəfər diri doğulana)** | 11.4 | DSK, 2017 |
| **Ana ölümü əmsalı (hər 100 000 nəfər diri doğulana)** | 13.8 | DSK, 2017 |
| **Doğulan uşaqlar arasında cins nisbəti** | hər 100 qıza 114 oğlan | DSK, 2017 |
| **Doğulanda gözlənilən ömür uzunluğu (il)** | 75.2 (Qadınlar: 77.6; Kişilər: 72,8) | DSK, 2017 |
| **Gözlənilən sağlam ömür uzunluğu (il)** | Qadınlar: 67.7; Kişilər: 62.8 | DSK, 2017 |

***** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (DSK)

1. Azərbaycan-Ermənistan Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycanın ərazisinin 20%-i Ermənistanın hərbi qüvvələri tərəfindən işğal olunub.
2. Burada vətəndaşlıq deyil, etnik mənsubiyyət (Azərbaycan türkləri) nəzərdə tutulur. Bununla yanaşı, etnik mənsubiyyətindən asılı olmayaraq bütün Azərbaycan Respublikası vətəndaşlarına azərbaycanlılar kimi istinad edilir.

2016-cı ilin dekabr ayında Hökumət orta və uzunmüddətli məqsədlərini əks etdirən "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi"ni təqdim etdi.

**Qərarvermə proseslərində iştirak:** Seçkili orqanlarda vəzifə tutan qadınların sayı nəzərəçarpacaq dərəcədə azdır. Hökumətdə yüksək qərarverici vəzifələrə təyin olunan qadınların sayı da çox azdır. Qadınların siyasi həyatda iştirakını məhdudlaşdıran hüquqi mexanizmlər olmasa da, ev işlərinin qeyri-proporsional dərəcədə bölüşdürülməsi də daxil olmaqla, struktur və sistem əsaslı maneələr onlara siyasi həyatda daha fəal mövqe tutmağa mane olur.

| Göstərici | Təqdim olunan rəqəm | Təqdim olunan rəqəm |
|---|---|---|
| **Dövlət qulluğunda inzibati vəzifələrin paylanması, 4-7-ci təsnifatlar üzrə (%)** | Qadınlar: 9.9; Kişilər: 90.1 | DSK, 2017 |
| **Milli parlamentin üzvləri (%)** | Qadınlar: 16.1; Kişilər: 83.9 | DSK, 2017 |
| **Hakimlər (%)** | Qadınlar: 12; Kişilər: 88 | DSK, 2017 |
| **Özəl sahibkarların tərkibi (%)** | Qadınlar: 20.9; Kişilər: 79.1 | DSK, 2017 |
| **Sürücülük vəsiqəsi almış şəxslərin tərkibi (%)** | Qadınlar: 93.5; Kişilər: 6.5 | Dünya Bankı, 2016 |

# TƏDQİQAT METODOLOGİYASI VƏ MƏHDUDİYYƏTLƏR

Bu ölkə icmalı müxtəlif mənbələrdən, o cümlədən Hökumətin, beynəlxalq təşkilatların və vətəndaş cəmiyyətinin hazırladığı hesabatlardan, habelə CEDAW Komitəsi və Universal Dövri İcmal (ÜDİ) üzrə İşçi Qrupun Azərbaycan üzrə icmalı ilə bağlı sənədlərdən əldə olunan məlumatlar əsasında ərsəyə gəlmişdir.

Azərbaycanda cins nisbətinin pozulması ilə bağlı ilk geniş qiymətləndirmə BMT-nin Əhali Fondunun Azərbaycandakı Nümayəndəliyi ilə yaxından əməkdaşlıq çərçivəsində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK) tərəfindən aparılıb. Qiymətləndirmə müstəsna olaraq bu fenomenə zəmin yaradan mexanizmlərə yönəlmiş, bu məqsədlə həm keyfiyyət, həm də kəmiyyət əsaslı mövcud məlumatlardan istifadə edilmişdir. Tədqiqat doğulan uşaqlar arasında cins nisbətinin pozulmasına zəmin yaradan sosial-demoqrafik amilləri müəyyən etmiş və aidiyyəti səbəbləri təhlil etmişdir.

Hökuməti doğulan uşaqlar arasında cins nisbətinin pozulmasının əhalinin gələcək strukturuna təsiri (və problemi aradan qaldırmaq üçün təcili müdaxilənin vacibliyi) barədə əlavə dəlillərlə təmin etmək məqsədilə, BMT-nin Əhali Fondu Hacettepe Universitetinin Əhali Araşdırmaları İnstitutunun ekspertlərinin dəstəyilə beş müxtəlif ssenari üzrə əhali proqnozlarını hazırlamışdır.

Azərbaycan cəmiyyətinə xas olan xüsusi gender rollarının formalaşmasına təsir edən dəqiq mexanizmləri müəyyən etmək üçün gender və davranışı tədqiq edən elmlərdən istifadə edərək daha çox sahələrarası tədqiqatların aparılmasına ehtiyac var. Hazırda doğulan uşaqlar arasında cins nisbəti 100 qız uşağına 114 oğlan uşağı səviyyəsindədir. Lakin bu azalmanın müvəqqəti dəyişiklik, yaxud vəziyyətin normallaşmasına işarə edən bir göstərici olduğunu müəyyən etmək üçün sistemli müşahidələr və təhlillər aparılmalıdır.

# BÖLMƏ

# 1

# OĞLAN UŞAQLARINA VERİLƏN ÜSTÜNLÜK VƏ GENDER ƏSASLI CİNS SEÇİMİ

## 1.1 GİRİŞ

Ötən onilliklər ərzində Azərbaycanda gender bərabərliyini yaxşılaşdırmaq üçün əhəmiyyətli işlər görülmüşdür. Ölkənin Konstitusiyası bütün kişilər və qadınlar arasında hüquq bərabərliyini birbaşa qeyd edir və bu təminat sonradan qəbul edilmiş və ya yenidən baxılmış bir sıra normativ-hüquqi aktlarla dəfələrlə vurğulanır. Ölkədə demoqrafik vəziyyətlə bağlı aparılmış sonuncu tədqiqat bir sıra mühüm sahələrdə irəliləyişin əldə olunduğunu göstərir. Bu sahələrə kişi və qadınların gözlənilən ömür uzunluğunun artması və qadınlar arasında savadlılıq səviyyəsinin yüksəlməsi daxildir. Tədqiqatın nəticələri həmçinin göstərir ki, 20-ci əsrin əvvəlləri ilə müqayisədə qadınlar daha gec ailə qurur və daha az uşağa sahib olur. Qadınların eyni zamanda, şəhər və ya kənd yerlərində yaşamaq imkanları demək olar ki, bərabərdir, və onlar ev təsərrüfatından kənarda gəlir gətirən fəaliyyətlərlə daha çox məşğul olurlar.[3]

Tədqiqat həmçinin, gender bərabərsizliyinin ailələr daxilində, habelə ümumilikdə cəmiyyətdə münasibətlərin formalaşmasına təsir göstərməyə davam etdiyini göstərir. Hüquqların bərabərliyi ilə bağlı təminatların mövcud olmasına baxmayaraq, qadınların resurslara (iqtisadi, mədəni, informasiya və sosial) çıxışı kişilərlə müqayisədə əhəmiyyətli dərəcədə məhduddur. Qadınların şəxsi, ictimai və siyasi həyatda qərarların verilməsi proseslərində iştirakı da aşağı səviyyədədir. Gender və sosial norma və institutlar arasındakı qarşılıqlı əlaqələr də daxil olmaqla, müxtəlif faktorların qarşılıqlı təsiri qadınların rolunu ev təsərrüfatı ilə məhdudlaşdırmağa davam edir ki, burada da onlara əsasən reproduktiv funksiyalarına görə dəyər verilir.[4] Ev təsərrüfatında öhdəliklərin qeyri-bərabər bölgüsü vəziyyəti daha da pisləşdirir. Belə ki, əksər qadınlar ev işləri ilə bərabər həmçinin ailəyə dəstək üçün gəlir gətirən fəaliyyətlə də məşğul olmağa məcburdurlar. Qadınlara qarşı ənənəvi yanaşmalar və ənənələrin, eləcə də mədəniyyətə əsaslanan təcrübələrin yaratdığı stereotipləşmiş rolların ölkədə geniş yayılması qadınların irəli çəkilməsinə və səlahiyyətlərinin artırılmasına ciddi şəkildə mane olur və köhnə zərərli təcrübələrin dirçəlməsi, həmçinin yenilərinin yaranması ilə nəticələnir.[5]

## 1.2 AZƏRBAYCANDA DOĞULAN UŞAQLAR ARASINDA CİNS NİSBƏTİNİN POZULMASI

1965-ci ildən etibarən, demoqrafik keçid çərçivəsində ənənəvi ailələrin "kiçilməsi" ilə bağlı olaraq, Azərbaycanda nəsilvermə azalmışdır: üçüncü doğuşlar artıq çox nadir xarakter daşıyır və dördüncü, beşinci və daha çox doğuşlara artıq təsadüf edilmir; eyni zamanda, demək olar ki, bütün qadınlar evləndikdən sonra birinci və ikinci uşaqlarını qısa müddət ərzində dünyaya gətirirlər. Keçmiş SSRİ-nin müasirləşdirmə layihəsi Azərbaycan ailəsinin strukturuna böyük təsir göstərmişdir. Ailə quruluşununun monoqam ailələrə doğru dəyişməsi ər-arvadın, əsasən də qadınların nikah yaşının artması, doğum əmsalının azalması və valideynlər tərəfindən təşkil olunan evlilikdən daha çox sevgi və yoldaşlıq əsasında evliliyə keçidlə müşayiət olundu. Buna baxmayaraq, Azərbaycanda icma və ailəyə yüksək dəyər verən, eləcə də həyat yoldaşı da daxil olmaqla, özəl seçimlərdə böyüklərin fikirlərinə əhəmiyyət verən güclü mədəni ənənələr qorunub saxlanılmış və bəzi hallarda daha güclü şəkildə özünü büruzə verməyə başlamışdır. Gənc cütlüklərin böyük əksəriyyəti valideynlərindən ayrı yaşamağa meyl etsə də, bir neçə nəslin nümayəndələrinin bir evdə yaşadığı geniş ailələr də istisna təşkil etmir.

Son zamanlarda aparılmış tədqiqatın nəticələri göstərir ki, gender və gender bərabərliyi – qadın və kişi olmağın mahiyyəti ilə bağlı sərt inanclar Azərbaycanlı kişi və qadınların şüurunda dərin kök salıb.[7] Dəlillərə əsaslanan məlumatlardan görünür ki, sözügedən gender stereotipləri və yanlış təsəvvürlər, habelə oğlan uşaqlarına yüksək dəyər aşılayan ənənəvi təcrübələr

3. UNFPA/UNDP (2015). Əhalinin vəziyyətinin təhlili: Azərbaycanda demoqrafik keçid. Bakı, Azərbaycan
4. Eyni mənbə.
5. UNFPA/AQUPDK (2017). Azərbaycanda gender bərabərliyi və gender münasibətləri: mövcud vəziyyət və imkanlar. Kişilərin Gender Bərabərliyinə Münasibətinə dair Tədqiqat (IMAGES). Bakı, Azərbaycan.
6. UNFPA/UNDP (2015). Əhalinin vəziyyətinin təhlili: Azərbaycanda demoqrafik keçid. Bakı, Azərbaycan
7. UNFPA/AQUPDK (2017). Azərbaycanda gender bərabərliyi və gender münasibətləri: mövcud vəziyyət və imkanlar. Kişilərin Gender Bərabərliyinə Münasibətinə dair Sorğu (IMAGES). Bakı, Azərbaycan.

Azərbaycanda gender əsaslı cins seçimi fenomeninin baş verməsi prosesində əhəmiyyətli rol oynayır. Nəsilvermə əmsalının aşağı düşməsi, habelə dölün cinsiyyətini müəyyən etməyə imkan verən ultrasəs müayinə cihazlarının əlçatanlığı və geniş istifadəsi zəminində oğlan uşağına üstünlük şəklində özünü biruzə verən bu təcrübə geniş yayılmış patriarxal inanclardan qaynaqlanır.

BMT-nin Əhali Fondunun proqnozlarına[8] əsasən, Azərbaycanda doğulan uşaqlar arasında cins nisbəti 116 və daha yuxarı qalmaqda davam edərsə, 2050-ci ilə qədər hər il doğulan oğlan uşaqlarının sayı qız uşaqlarının sayından 12000-15000 nəfər çox olacaq. Kişilərin və oğlan uşaqlarının sayında artım bu templə davam edərsə, və ya daha da artarsa, ölkə tezliklə təhsildə daha geniş gender fərqi, əmək bazarında qadınların xüsusi çəkisinin azalması, ictimai həyatın bütün sahələrində gender müxtəlifliyinin azalması (maskulinizasiya) kimi mənfi təsirlərə məruz qalacaq. Bu maskulinizasiya qadınların irəli çəkilməsinə mane olacaq və cinayətkarlıq səviyyəsinin, o cümlədən insan alveri hallarının artması ilə nəticələnəcək. Qadınların çatışmazlığı onların daha çox ənənəvi reproduktiv vəzifələrini həyata keçirməsi istiqamətində təzyiqləri də artıra bilər ki, bu da qadınların fərdi inkişaf perspektivi və cəmiyyətdəki məhsuldar rolu ilə ziddiyyət təşkil edəcəkdir.[9]

## 1.3 DOĞULAN UŞAĞIN CİNSİNƏ GÖRƏ SEÇİMİNİN SƏBƏBLƏRİ

Bu bölmədə əsas diqqət gender əsaslı cins seçiminin səbəblərinə və cins seçiminin təməl səbəbi olan gender bərabərsizliyinə yetirilir. Rasional davranış nəzəriyyəsinə əsaslanaraq, bu bölmədə problemin səbəbləri iki geniş kateqoriyada verilir: tələbat və təchizatla əlaqəli amillər. Tələbatla əlaqəli amillərdən bəhs edərkən, gender əsaslı cins seçimi təcrübəsi və oğlan uşağına üstünlüyün verilməsini şərtləndirən sosial, mənəvi, mədəni və iqtisadi səbəblərə nəzər salınır və Azərbaycan cəmiyyətində qızlarla müqayisədə oğlan uşaqlarına malik olmağın niyə daha faydalı və arzuolunan olması izah edilir.

Bu bölmədə gender əsaslı cins seçiminə təsir edən amillərə ayrı-ayrılıqda nəzər salınmağa səy göstərilsə də, onlar çox zaman bir-biri ilə əlaqəli şəkildə gender əsaslı cins seçiminə gətirib çıxarır.

Tələbat amili cəmiyyətdə müəyyən cinsə mənsub olan uşağa üstünlük verilməsi və valideynlərin uşağın cinsini seçmək niyyətinə səbəb olan aşağı nəsilvermə əmsalı ilə əlaqəlidir.[10] Təchizatla əlaqəli amillər isə cins seçimini həyata keçirməyə və doğuşdan əvvəl uşağın cinsini müəyyən etməyə imkan verən texnologiyaların mövcudluğu, habelə mövcud üsulların səmərəliliyi, xərcləri və əlçatanlığı, həmçinin müvafiq normativ-hüquqi çərçivəni əhatə edir.

### 1.3.1 Tələbatla əlaqəli amillər: Gender əsaslı cins seçiminə tələbatı artıran amillər

Mövcud tədqiqatlar göstərir ki, müxtəlif nəsillərdən olan, müxtəlif sosial-iqtisadi mənsubiyyətə malik olan və ölkənin müxtəlif regionlarından olan kişilər və qadınlar arasında oğlan uşağına üstünlüyün verilməsi meyli güclü olmaqla yanaşı, özünü aşkar şəkildə büruzə verir. Oğlan uşaqları ailəyə töhfə verdiyindən, onlara "dəyər" kimi üstünlük verilir, qızlara isə əksinə, "öhdəliklər" kimi baxılır. Bu mövqe nəslin "davam etməsi" baxımından ənənəvi olaraq oğlanlara arxalanma, onların ailənin əsas çörək gətirəni və yaşlı valideynlərin qayğısını çəkən əsas ailə üzvləri kimi qəbul edilməsi, qızlara isə ailənin köçəri üzvü kimi baxılmasına əsaslanır.

#### Təhsildə gender fərqləri

Ümumilikdə, Azərbaycanda kişilər və qadınlar arasında savadlılıq səviyyəsi yüksəkdir. Bununla belə, ölkədə qız uşaqları oğlan uşaqları ilə müqayisədə hərəkət azadlığı baxımından daha çox məhdudiyyətlərə məruz qalır. Bu vəziyyətin əsas fəsadlarından biri kənd yerlərində qızların oğlanlarla müqayisədə məktəbə daha az getməsidir (xüsusilə məktəb evdən uzaqda yerləşdikdə). Nəticə etibarilə qızların orta məktəbin yuxarı siniflərində iştirakı azalır, peşə təhsili və ali təhsil səviyyəsində gender seqreqasiyası daha da artır.

Üstəlik, təhsil xərci artdıqca, ailələr qızların təhsilinə büdcə ayırmaqdansa, oğlanların təhsilinə investisiya etməyə daha meylli olur.[11] İcbari təhsildən, yəni 9-cu sinifdən sonra (11 illik təhsil sistemində) qız şagirdlərin sayının azalması bir neçə səbəblə izah olunur: qızlar nikaha daxil olur, valideynləri onlara dərsə getməyə icazə vermir və bəzi qızlar ixtisaslaşmış orta təhsil müəssisələrində təhsil alırlar.[12]

8. UNFPA (2015). Demoqrafik proqnozlar, 2014-2050: Azərbaycanda doğulan uşaqlar arasında cins nisbətinin müxtəlif ssenariləri.
9. UNFPA/UNDP (2015). Əhalinin vəziyyətinin təhlili: Azərbaycanda demoqrafik keçid.
10. UNFPA, Azərbaycandakı Nümayəndəlik (2014). Azərbaycanda doğulan uşaqlar arasında cins nisbətinin pozulmasına zəmin yaradan mexanizmlər: keyfiyyət və kəmiyyət əsaslı tədqiqat. Bakı: UNFPA.
11. Oxfam təşkilatının Azərbaycandakı Nümayəndəliyi (2012). Azərbaycanda gender təhlili.
12. BMTİP-in Azərbaycandakı Nümayəndəliyi (2016). Şamaxı və İsmayıllıda gender üzrə qiymətləndirmə hesabatı.

### Məşğulluq və sahibkarlıqda gender fərqləri

Rəsmi statistikaya görə, 2017-ci ildə məşğul kişilərin və qadınların sayında statistik baxımdan əhəmiyyətli fərq müşahidə edilməsə də (kişilər - 51.9%, qadınlar - 48.1%), işsiz qadınların xüsusi çəkisi işsiz kişilərlə müqayisədə xeyli yüksəkdir (qadınlar - 57.8%, kişilər - 42.2%).

**Ödənişli əmək fəaliyyətində iştirak edən qadınlar əsasən 3 sektorda cəmləşib: təhsil (39.2%), səhiyyə və sosial xidmətlər (16%) və ticarət (11.5%).** [13]

Orta aylıq əmək haqqının ən aşağı göstəricilərindən bəziləri bu sektorlarda yer alır. Bundan əlavə, uşaqlara qulluq və ev işlərinin yaratdığı əlavə yük qadınlara qeyri-proporsional təsir göstərməyə davam edir. Qadınların iqtisadi müstəqilliyi ilə müqayisədə onların əmək bazarında məhdud iştirakı cins seçiminin oğlanların xeyrinə artmasına səbəb olan əsas amillərdir. Bu, onunla izah olunur ki, Azərbaycan kimi patriarxal cəmiyyətlərdə insanlar yaşlananda iqtisadi dəstək və təminat baxımından əsasən oğullarına güvənirlər və buna görə də qızları ilə müqayisədə oğullarına daha böyük dəyər verirlər.

### Qərarların verilməsində gender balansının pozulması

Milli qanunvericilikdə qadınlara bu sahədə birbaşa mane olan və ayrı-seçkilik yaradan aşkar müddəalar olmasa da, qadınların qərarverici səviyyələrdə iştirakı hələ də aşağıdır. Azərbaycan BMTİP-in Gender İnkişaf İndeksində (GİI) 0.940 göstərici ilə 160 ölkə arasında 78-cidir. 2016-cı ildə ölkənin ali milli qanunverici orqanı olan Milli Məclisin üzvlərinin 16.1 faizini (104 nəfərdən 20-si) qadınlar təşkil edirdi. 15 parlament komitəsindən yalnız ikisinə, insan hüquqları və ailə, qadın və uşaq problemləri üzrə komitələrə qadınlar sədrlik edir.

Kişilər həmçinin icra hakimiyyətinin yuxarı eşalonlarında üstünlük təşkil edir. Nazir və dövlət komitəsi sədrləri vəzifələrindən yalnız ikisini qadınlar tutur: Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədrləri. Ədliyyə sistemində də qadınların iştirak səviyyəsi cüzidir: 480 hakimdən yalnız 57-si[14], 1069 prokurordan 47-si və Ali Məhkəmənin 41 hakimindən 6-sı qadındır.[15]

### Gender və sağlamlıq

Azərbaycanda ötən bir neçə il ərzində aparılmış tədqiqatlar qadınların sağlamlıq məsələləri, yoxsulluq və səhiyyə üzrə dövlət xərclərinin qeyri-adekvatlığı arasında qarşılıqlı əlaqələrin olduğunu göstərir.[16] Azərbaycan ailəsinin strukturu və qadınların asılılıq statusu onların səhiyyə xidmətlərinə çıxış imkanlarına mane olan daha bir amil hesab edilə bilər. Demoqrafiya və Sağlamlıq Sorğusuna (DSS) əsasən evli qadınların 20 faizi öz sağlamlığı ilə bağlı qərarları özləri verə bilir; 52 faizi öz əri/tərəf müqabili ilə birgə qərar verir; 28 faizi isə deyir ki, qadınların sağlamlığı barədə əsas qərarverici şəxs onların əri və ya başqa biridir.[17] 2011-ci il üzrə DSS də həmçinin, qadınların səhiyyə xidmətlərinə çıxışına mane olan əsas amilləri müəyyən edir: xərc (rəsmi və qeyri-rəsmi ödənişlər), məsafə, nəqliyyatın olmaması, qadın mütəxəssislərin olmaması, qadınların tək getmək istəməməsi, ənənəvi sosial norma kimi qadınların ailənin kişi üzvündən və ya yaşca böyük qadın üzvündən icazə almaq zərurəti.

## 1.3.2 Təchizatla əlaqəli amillər

2015-ci ildə nəsilvermə əmsalı hər qadın üçün 2.1 uşaq idi. DSS məlumatları göstərir ki, Azərbaycanda ən geniş yayılmış doğuma nəzarət üsulu süni abortdur. Təqribən hər iki hamiləlikdən biri abort vasitəsilə sonlandırılır. Azərbaycanda abortla bağlı hüquqi təminatlar dünyada ən liberal şərtlər sırasındadır (BMT, 2013). Bu hüquqi təminatlar qadınların öz arzusu ilə hamiləliyin 12-ci həftəsinə qədər və sosial-iqtisadi göstərişlər olduqda 22-ci həftəsinə qədər abort olunmasına imkan verir. Tibbi göstərişlər olduqda isə, müddət baxımından aborta heç bir məhdudiyyət tətbiq olunmur və qanuni sayılır.

2011-ci il üzrə DSS-ə əsasən, hazırda evli qadınlar arasında kontrasepsiyadan istifadə səviyyəsi 54.9 faizdir. Bu, 2006-cı il üzrə DSS-də qeydə alınan göstərici ilə (51.1 faiz) müqayisədə bir qədər yüksəkdir. Lakin 2006-2011-ci illər arasında hazırda evli olan qadınlar arasında müasir kontraseptiv üsullardan istifadə səviyyəsi dəyişməz qalmışdır (13.9 faiz).

13. DSK, 2018.
14. DSK (2018). "Qadınlar və Kişilər, 2017". Bakı
15. Ədalət mühakiməsinin səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ), Ədliyyə Sistemlərinin Qiymətləndirilməsi Mexanizmi (2013). 19 oktyabrda aşağıdakı keçiddən götürülüb: www.coe.int/t/dghl/cooperation/cepej/evaluation/2014/Azerba%C3%AFdjan_2014.pdf.
16. Misal üçün bax: AİI və UNICEF-in (2008) "Azərbaycanlı uşaqların sağlamlıq və təhsilinə büdcə ayırmaları" hesabatında istinad edilən, Himayədar Humanitar Təşkilatının "Ana və uşaq ölümü - Azərbaycanda yoxsulluğun törətdiyi problemlərdən biri kimi" hesabatı (2008).
17. Azərbaycan üzrə Demoqrafiya və Sağlamlıq Sorğusu (2006), s. 195

Müasir kontraseptiv vasitələrdən istifadə səviyyəsinin aşağı olması, ailə planlaşdırması ilə bağlı məsləhət və məlumat xidmətlərinə çıxış imkanının məhdudluğu abortdan istifadənin nəsilverməyə nəzarət üçün istifadə edilən əsas üsul olmasına səbəb olan amillərdir.

Azərbaycanda abort əmsalı Türkiyə və Mərkəzi Asiya ölkələri arasında ən yüksək göstəricilər arasındadır. Patriarxal münasibətlər və oğlan uşağına verilən üstünlüklə bağlı stereotiplər də selektiv abortların sayının yüksək olmasına gətirib çıxarır.

## 1.4 NƏSİLVERMƏNİN AZALMASI VƏ OĞLAN UŞAQLARINA ÜSTÜNLÜYÜN VERİLMƏSİNDƏ MÜŞAHİDƏ OLUNAN FƏRQLƏR

### Şəkil 1. Ümumi nəsilvermə əmsalı, 1959–2016-cı illər




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

### Şəkil 2. Doğulanlar arasında cins nisbəti, 1990-2016-cı illər




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**Şəkil 3. Doğuşların sıra sayına görə doğulan uşaqlar arasında cins nisbəti, AzDSS 2011**




**Mənbə:** Azərbaycan üzrə Demoqrafiya və Sağlamlıq Sorğusu (DSS) 2011-ci il

Azərbaycanda ötən 50 il ərzində nəsilvermə səviyyəsi kəskin şəkildə aşağı düşmüşdür. Ümumi nəsilvermə əmsalı 1970-ci ildə hər qadına 4.7 uşaq, 2017-ci ildə isə 1.9 uşaq olmuşdur. Abortların evli qadınlar tərəfindən ikinci doğuşdan sonra nəsilverməyə nəzarət məqsədilə istifadə olunması ehtimalı daha yüksəkdir. İlk hamiləliklərin yalnız 2 faizi abortla nəticələndiyi halda, beşinci və daha sonrakı hamiləliklərdə bu göstərici 80.4 faizə çatır. Hazırda evli olan qadınların yarıdan çoxu (54.8 faizi) ən azı bir abort edib. Uşaqların sayı artdıqca, süni abort etmiş qadınların xüsusi çəkisi də artır. İki və ya üç oğlu olan qadınlar arasında süni abort göstəricisi iki və ya üç qızı olan qadınlarla müqayisədə əhəmiyyətli dərəcədə daha yüksəkdir.

Nəsilvermə ilə bağlı meyllər doğulan uşaqlar arasında cins nisbətinin pozulması ilə birbaşa əlaqəlidir. Ehtimal edildiyi kimi, uşaqların sayı artdıqca nəsilverməni məhdudlaşdırmaq arzusu da artır. Lakin uşağın cinsiyyəti də bu baxımdan fərqlərə səbəb olur və bu, oğlan uşağına verilən üstünlüyün göstəricilərindən biri kimi şərh edilə bilər. Ümumilikdə, yalnız iki oğlu olan qadınların 81.4 faizi artıq uşaq sahibi olmaq istəmir. İki qızı olan qadınların isə nəsilverməni dayandırmaq istəyi 62.1 faizə düşür. Bu baxımdan üç oğlu və üç qızı olan qadınlar arasındakı fərq daha azdır (müvafiq olaraq, 92.4% və 83.7%).

## 1.5 REGİONAL FƏRQLƏR

Nəsilverməni məhdudlaşdırmaq istəyi və uşaqların cins tərkibi göstərir ki, oğlan uşaqlarına verilən üstünlük həm şəhər, həm də kənd yerlərində eyni dərəcədə təzahür edir. Belə ki, həm şəhər, həm də kənd yerlərində iki oğlu olan və nəsilverməni dayandırmaq istəyən qadınların faiz göstəricisi iki qızı olan qadınlarla müqayisədə 16 faiz yüksəkdir. Regional fərqlər də diqqətəlayiqdir. İki oğlu olan qadınların və iki qızı olan qadınların nəsilvermə ilə bağlı meyllərindən görünür ki, oğlan uşaqlarına üstünlüyün verilməsi Lənkəran, Quba-Xaçmaz və Yuxarı Qarabağ regionlarında daha geniş yayılıb. Təhsil də mühüm dəyişənlərdən biri hesab edilir. Eyni dəyişənlərə əsasən nəticələr iki oğlan uşağına sahib olmaq istəyinin icbari orta və daha aşağı təhsil səviyyəsinə malik qadınlar arasında, eləcə də yoxsul və ən yoxsul ev təsərrüfatları arasında daha yüksək olduğunu göstərir.

**Şəkil 4. Regional fərqlər: 2 oğlu olan qadınlar və 2 qızı olan qadınların nəsilvermə meylləri müqayisəli şəkildə, regiona görə (AzDSS, 2011)**




**Mənbə:** Azərbaycan üzrə Demoqrafiya və Sağlamlıq Sorğusu (DSS) 2011-ci il

18 UNFPA, Azərbaycandakı Nümayəndəlik (2014). Azərbaycanda doğulan uşaqlar arasında cins nisbətinin pozulmasına zəmin yaradan mexanizmlər: keyfiyyət və kəmiyyət əsaslı tədqiqat. Bakı: UNFPA.

# BÖLMƏ 2

# QANUNUN ALİLİYİ VƏ İNSAN HÜQUQLARI

1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası insan hüquqları ilə bağlı bir sıra beynəlxalq sazişlərə, o cümlədən "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiya və onun fərdi şikayətlər və sorğu prosedurları haqqında Fakultativ Protokoluna qoşuldu. Ötən onillik ərzində milli qanunvericiliyə həyatın bütün sahələrində gender bərabərsizliyinin, gender əsaslı ayrı-seçkiliyin və zorakılığın aradan qaldırılması istiqamətində önəmli dəyişikliklər edilmişdir.

Buna baxmayaraq, qadınlar üçün qənaətbəxş səviyyədə hüquqi müdafiənin təmin edilməsi baxımından ciddi boşluqlar hələ də qalmaqdadır. Bir çox digər ölkələrdə olduğu kimi, qanunvericilik aktları və onların icrası arasında uyğunsuzluq qalmaqdadır. Qadınlar və kişilər arasında bərabərliyin Konstitusiyada və digər milli qanunvericilik sənədlərində (o cümlədən 2006-cı ildə qəbul edilmiş "Gender bərabərliyinin təminatları haqqında" qanun) təsdiq olunmasına baxmayaraq, sosial, iqtisadi və siyasi həyatın bir çox sahələrində de-fakto gender bərabərsizliyi hələ də nəzərəçarpacaq dərəcədədir. Azərbaycanda qadınlar keyfiyyətli təhsilə, səhiyyə xidmətlərinə və məşğulluğa çıxış imkanı baxımından bir sıra çətinliklərlə üzləşir.

## 2.1 BEYNƏLXALQ KONVENSİYALAR VƏ SAZİŞLƏR

Azərbaycan müstəqilliyini bərpa etdikdən (1991-ci il) və müxtəlif beynəlxalq və regional hökumətlərarası təşkilatlara, o cümlədən BMT (1992-ci il) və Avropa Şurasına (2001-ci il) qoşulduqdan sonra ölkədə insan hüquqları və gender bərabərliyi sahəsində müsbət irəliləyişin əlamətləri müşahidə edilmişdir. Bu baxımdan BMT-nin agentliklərarası bəyanatı, Əhali və İnkişaf üzrə Beynəlxalq Konfransın Fəaliyyət Proqramı, "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiya (CEDAW), "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Pakt, "Uşaq hüquqları haqqında" Konvensiya və digər müvafiq beynəlxalq sazişlərə qoşulma diqqətəlayiqdir. İnsan hüquqları sahəsində doqquz əsas beynəlxalq sazişdən səkkizi ratifikasiya edilib. Bu sazişlər insan hüquqları sahəsində beynəlxalq hüquq çərçivəsində müdafiə edilən insan hüquqlarının təmin olunması ilə bağlı hüquqi öhdəlik yaradır.

## 2.2 MİLLİ QANUNVERİCİLİK

Azərbaycanın Konstitusiyasında (1995-ci il) insan hüquqları və əsas azadlıqların müdafiəsi ilə bağlı ayrıca fəsil yer alır. 25-ci maddədə bərabərlik prinsipi və ayrı-seçkiliyin bütün formalarının qadağan olunması öz təsdiqini tapır.

Parlament 2006-cı ildə gender əsaslı ayrı-seçkiliyin və onun mənfi nəticələrinin qarşısının alınmasına yönələn "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" qanunu qəbul etdi. Bu qanun kişilər və qadınlar arasında hüquq bərabərliyinin təmin edilməsinə və gender bərabərsizliyi ilə bağlı çətinliklərin aradan qaldırılması və qarşısının alınmasına yönəlir. Qanunda siyasi, iqtisadi, sosial və mədəni sahələr də daxil olmaqla, bütün sahələrdə qadın və kişilərin bərabər hüquq və imkanlarının təminatı ilə bağlı dövlət qurumlarının əsas vəzifələri təsvir olunur. Üstəlik, bu qanunda iqtisadi və sosial münasibətlərdə gender bərabərliyi ilə bağlı konkret müddəa da əks olunub. Ən əsası isə odur ki, sözügedən qanun qadınlara qarşı ayrı-seçkliyin dərin kök salmış müxtəlif formalarının olduğunu və onların qadınların öz insan hüquqları və əsas azadlıqlarından yararlanmasına mane olduğunu vurğulayır. 3.2 saylı maddəyə əsasən isə qadınlar üçün de-fakto bərabərliyin təmin olunmasını sürətləndirmək məqsədilə zəruri olduqda xüsusi tədbirlər görülə bilər.

**Azərbaycan Respublikasının Ailə Məcəlləsinə dəyişikliklərin edilməsi haqqında qanununa (2011-ci il) əsasən, qadın və kişilər üçün minimum nikah yaşının bərabərləşdirilməsi ilə bağlı zəruri dəyişikliklər edildi (hər ikisi üçün 18 yaş).**

"Məişət zorakılığının qarşısının alınması haqqında" qanun (2010) məişət zorakılığının qarşısının alınması, hüquqi müdafiə vasitələri, habelə məişət zorakılığının səbəblərinin aradan qaldırılması istiqamətində tədbirləri müəyyən edir və tənzimləyir.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında gender bərabərliyi prioritet fəaliyyət istiqamətlərindən biri kimi müəyyən edilib. Sənədin konseptual çərçivəsi həm də Ailə strategiyası, Gender Bərabərliyi üzrə Milli Fəaliyyət Planı, Uşaq Məcəlləsi və Milli Uşaq Strategiyası kimi bir sıra normativ sənədlərin hazırlanmasını da nəzərdə tutur.

## 2.3 MİLLİ ÇƏRÇİVƏ

Azərbaycanda doğulan uşaqların cins nisbətinin pozulmasına zəmin yaradan mexanizmlərlə bağlı aparılmış tədqiqatın nəticələri açıqlandıqdan sonra, BMT-nin Əhali Fondu bu fenomenin qarşısının alınması və aradan qaldırılmasına yönələn normativ çərçivənin hazırlanması məqsədilə Hökumətə dəstək göstərmişdir. "Azərbaycan Respublikasında əhali sakinliyi və demoqrafik inkişaf sahəsində Dövlət Proqramı" (2018-2030-cu illər) sənədinin layihəsində sözügedən problem, habelə müvafiq müdaxilə tədbirləri və tendensiyaların monitorinqi ilə bağlı müddəalar yer alır. BMT-nin Əhali Fondu hazırda bütün maraqlı tərəflərlə Dövlət Proqramının təsdiq olunmasına dair danışıqlar prosesində iştirak edir. Hökumət "Azərbaycanda gender əsaslı cins seçiminin qarşısının alınması və aradan qaldırılması üzrə Milli Fəaliyyət Planı"-nın hazırlanmasında dəstək üçün BMT-nin Əhali Fonduna müraciət etmişdir. Bu məqsədlə, BMT-nin Əhali Fondu tərəfindən yaradılmış beynəlxalq və yerli ekspertlərdən ibarət komanda Hökumətlə sıx əməkdaşlıq çərçivəsində sözügedən sənədi hazırladı. 2018-ci ilin oktyabr ayında Milli Fəaliyyət Planının rəsmi təqdimat mərasimi keçirildi. Təsdiqləndikdən sonra, cinsə görə qərəzli seçimin azaldılmasına yönələn səmərəli müdaxilə strategiyaları üçün sənədin müfəssəl yol xəritəsi kimi istifadə olunması nəzərdə tutulub.

# NƏTİCƏLƏR: ÇƏTİNLİKLƏR, İMKANLAR VƏ TÖVSİYƏLƏR

## Çətinliklər

Son onilliklər ərzində Azərbaycan gender bərabərliyinin qorunması və təşviqi istiqamətində irəliləyişə nail olmuşdur. İnsan hüquqları sahəsində hüquqi öhdəlik yaradan bir sıra beynəlxalq sazişlər təsdiq olunub və onlar hazırda qadınların sosial, iqtisadi və siyasi sahələrdə səlahiyyətlərinin artırılması üçün səmərəli hüquqi və normativ çərçivəni təşkil edir.

Gender əsaslı cins seçiminin səviyyəsindən göründüyü kimi, oğlan uşaqlarına üstünlüyün verilməsi kimi zərərli təcrübənin qarşısının alınması üçün hüquqi-normativ bazanın daha yaxşı icrası təmin edilməlidir. Ümumilikdə gender əsaslı ayrı-seçkilik hallarını, konkret olaraq isə oğlan uşaqlarına verilən üstünlük fenomenini aradan qaldırmaq üçün qadınların hüquqlarının qorunması və təşviqi məsələləri daha geniş kontekstdə – sosial ədalət çərçivəsində nəzərdən keçirilməlidir.

Yuxarıdakı təhlil göstərir ki, oğlan uşaqlarına verilən üstünlük və gender əsaslı cins seçimi, onun səbəbləri və fəsadları ilə bağlı məlumatların və dəlillərin mövcudluğunu təmin etmək üçün strateji müdaxilə tədbirlərini genişləndirmək mümkündür. Bununla yanaşı, ölkədə gender əsaslı ayrı-seçkiliyin aradan qaldırılması üçün hüquqi-normativ bazanın hazırlanması və təkmilləşdirilməsinə şərait yaratmaq da mümkündür.

## Tövsiyələr

### Məlumatlar və dəlillər

- Doğulan uşaqlar arasında cins nisbətinin pozulması ilə bağlı sistemli müşahidə və təhlil aparmaq;
- Müxtəlif sosial-iqtisadi amillər, demoqrafik göstəricilər və əhalinin nəsilvermə meylləri arasında qarşılıqlı təsir və səbəb əlaqələri ilə bağlı keyfiyyət əsaslı tədqiqatlar aparmaq;
- Oğlan uşaqlarına verilən üstünlük və qızların dəyərinin təşviq edilməsinə aid olan sosial siyasət sənədlərinin gender cəhətdən qiymətləndirilməsini aparmaq;
- Azərbaycan cəmiyyətinə xas olan xüsusi gender rollarının formalaşmasına təsir edən dəqiq mexanizmləri aşkar etmək üçün gender və davranışı tədqiq edən elmlərdən istifadə edərək sahələrarası tədqiqatlar aparmaq;
- Ölkədə gender rollarının formalaşmasına zəmin yaradan stereotipləri aradan qaldırmaq və gender əsaslı ayrı-seçkiliyə son qoymaq məqsədilə əlavə dəlillər təqdim etmək üçün tədris proqramlarını, o cümlədən tədris resurslarını/materiallarını nəzərdən keçirmək.

### Hüquqi və siyasi çərçivənin yaxşılaşdırılmasının təşviqi

- İnsan hüquqları üzrə beynəlxalq hüququn müvafiq təminatlarına tam uyğunluğu təmin etməklə, gender bərabərliyi üzrə milli hüquqi çərçivələrin yaxşılaşdırılması üçün təşviqatı davam etdirmək;
- Qadın və qızların hüquqlarının təmin edilməsinə töhfə verən müvəqqəti xüsusi tədbirlərin tətbiqi üçün təşviqatı davam etdirmək;
- Kişilər üçün ödənişli, çevik və digər şəxsə ötürülə bilməyən valideyn məzuniyyətinin verilməsi üzrə qanunvericilik tədbirləri də daxil olmaqla, qadınların iqtisadi səlahiyyətlərinin artırılmasına şərait yaradacaq dövlət əsaslı uşaqlara və ailəyə qayğı sisteminin təmin edilməsi istiqamətində təşviqata başlamaq;
- Gender bərabərliyi perspektivinin bütün müvafiq normativ çərçivələrinin planlaşdırılması, hazırlanması, icrası və qiymətləndirilməsi prosesində nəzərə alınması üçün təşviqat aparmaq;
- "Reproduktiv sağlamlıq və ailə planlaşdırılması haqqında" qanun layihəsinin təsdiq olunması üçün təşviqatı davam etdirmək;
- "Azərbaycanda gender əsaslı cins seçiminin qarşısının alınması və aradan qaldırılması üzrə Milli Fəaliyyət Planı"nın təsdiqi üçün təşviqatı davam etdirmək.

**İcmaların səfərbər edilməsi və sosial normaların dəyişilməsi istiqamətində təşviqat**

- Mövcud tədqiqatların, o cümlədən Kişilərin Gender Bərabərliyinə Münasibətinə dair Tədqiqatın (IMAGES) nəticələrini açıqlamaq üçün müxtəlif maraqlı tərəflərlə işləmək, nəticələri gənclər, valideynlər, icma üzvləri, media nümayəndələri, dövlət qurumları və vətəndaş cəmiyyəti təşkilatları ilə bölüşmək. Cəmiyyətdə qadın və kişi olmağın mahiyyəti ilə bağlı münasibət və yanaşmaları müzakirə etmək;

- Müvafiq tədqiqatların əsas nəticələri haqqında cəlbedici infoqrafika və qısa animasiyalar hazırlamaq üçün media şirkətləri ilə işləmək;

- Ümumilikdə gender bərabərliyi, konkret olaraq isə gender əsaslı cins seçimi barədə media məhsullarının/məqalələrinin sayının və keyfiyyətinin artması üçün media nümayəndələri ilə əməkdaşlıq etmək;

- Gender bərabərliyinin təmin edilməsi fəaliyyətlərinə kişilərin və oğlanların cəlb olunması üçün vətəndaş cəmiyyəti təşkilatları ilə əməkdaşlıq etmək. Onları atalıq, sağlam münasibətlər, cinsi və reproduktiv sağlamlıq və hüquqlarla bağlı maarifləndirmə kampaniyalarının hazırlanmasına cəlb etmək. Belə kampaniyalar məqsədli olmalı və xüsusi sosial və gender normalarına yönəldilməlidir;

- Qız uşaqlarının dəyərini təşviq edən ictimai maarifləndirmə kampaniyaları hazırlamaq və həyata keçirmək üçün hökumət, vətəndaş cəmiyyəti, icma üzvləri və digər maraqlı tərəflərlə əməkdaşlıq etmək.

**Monitorinq və qiymətləndirmə**

- Görülmüş tədbirlərin təsirlərinin monitorinqi və qiymətləndirilməsi mexanizmini yaratmaq və zərurət olduqda əlavə tədbirlər görmək məqsədilə Hökumət və digər maraqlı tərəflərlə işləmək. Bu monitorinq və qiymətləndirmə sisteminə aşağıdakı göstəricilər daxil edilməlidir: doğulan uşaqlar arasında cins nisbəti, süni abort səviyyəsi, gecikmiş abortların sayı, kontraseptiv vasitələrdən istifadə səviyyəsi, qadınların iqtisadi fəallıq səviyyəsi, gender üzrə maarifləndirmə proqramlarının əhatə etdiyi əhalinin sayı, tibbi sığorta sisteminin əhatə etdiyi əhalinin xüsusi çəkisi və digər aidiyyəti göstəricilər.



**Foto:** © BMT-nin Əhali Fondu

## Minnətdarlıq

Bu ölkə icmalı BMT-nin Əhali Fondunun həyata keçirdiyi "Oğlan uşaqlarına verilən üstünlüyün qarşısının alınması və qızların dəyərinin təşviq edilməsi üzrə Qlobal Proqram: Cənubi Qafqaz və bir sıra Asiya ölkələrində doğulan uşaqlar arasında cins nisbətinin tənzimlənməsi" Proqramı çərçivəsində BMT-nin Əhali Fondunun Azərbaycan Nümayəndəliyi tərəfindən hazırlanmışdır. Proqram BMT-nin Əhali Fondu tərəfindən Avropa İttifaqının (Aİ) maliyyə dəstəyilə altı ölkədə – Azərbaycan, Banqladeş, Ermənistan, Gürcüstan, Nepal və Vyetnamda hökumətlər, vətəndaş cəmiyyəti və tədqiqat mərkəzləri ilə əməkdaşlıq çərçivəsində icra olunur. Bu proqram öz sahəsində ilk qlobal proqram olmaqla, sözügedən zərərli təcrübənin təməlində dayanan səbəblər haqqında məlumat toplamaq, eləcə də qız uşaqları və qadınların dəyərini yüksəltmək məqsədilə tərəfdaşlarla birgə həyata keçirilir. Proqram BMT-nin Əhli Fondunun Baş Qərargahının Texniki Şöbəsinin Gender, İnsan Hüquqları və Mədəniyyət Bölməsi tərəfindən BMT-nin Əhali Fondunun Asiya-Sakit Okean üzrə və Şərqi Avropa və Mərkəzi Asiya üzrə regional nümayəndəlikləri ilə əməkdaşlıq şəklində idarə olunur.

**© BMT-nin Əhali Fondu, 2018**

www.unfpa.org

BMT-nin Əhali Fondunun
Azərbaycandakı Nümayəndəliyi
BMT-nin 50 illiyi küçəsi 3
BMT Evi, 4-cü mərtəbə
Bakı, AZ 1001
Azərbaycan

Bütün hüquqlar qorunur. Hazırkı nəşrdə əksini tapan bütün məzmun, təhlil, rəylər və tövsiyələr yalnız müəlliflərə aiddir və BMT-nin Əhali Fondunun, Avropa İttifaqının və layihəyə cəlb olunan tərəfdaş dövlət qurumlarının mövqeyini əks etdirmir.

**Örtük şəkli:** © BMT-nin Əhali Fondu

UNFPA